# ATAM HAQQINDA BİR NEÇƏ SÖZ

Doğrusu, çoxdan idi ki, atamın kitab, məqalə və toplularını bir yerə gətirmək haqqında düşünürdüm. Özü də söhbətlərində yazdıqlarını, gördüyü işlərin hamısını kitablaşdırmağı deyirdi. Bir neçə dəfə demişdi ki, məqalə və kitablarımın hamısı ayrı-ayrı qovluqlarda çap və əlyazma şəklində qorunur. Bütün bu söhbətlər mənim düşüncəmdə son olaraq həmin işləri görməyə əsas oldu.

Bəzən qardaşımla da atamın kitab və məqalələrini sistemləşdirmək haqqında söhbətlərim olurdu. Beləcə içimdə olan istəyi reallaşdırmaq üçün müxtəlif vaxtlarda qəzet və jurnal qovluqlarını səbr və təmkinlə, səliqə ilə izləməyə başladım. Düzdür, çox ağır idi və xeyli zəhmət tələb edirdi. Buna baxmayaraq, yavaş-yavaş çalışıb yerinə yetirdim. İllər üzrə sistemləşdirdim, yazdığı məqalələri, haqqında yazılanları bir araya gətirdim. Kitablarının böyük bir hissəsi əlimin altında idi. Onları sıralamaq, illər üzrə düzmək elə də zəhmət tələb etmirdi. Mühüm bir hissəsini oxumuşdum və müəyyən qənaətlərim də vardı. Bilirdim ki, atamın altmış yaşı yaxınlaşır və ona xeyli əvvəl başladığım işi hədiyyə olaraq verməyi düşünürdüm. Bu cür kitabların hazırlanması ilə bağlı elə də təcrübəm yox idi. Düzdü, müəyyən toplamaların, tərtiblərin, məqalələrin sistemləşdirilməsində atamla birgə işlərimiz olmuşdu.

Bu münvalla biblioqrafik göstəricilərlə bağlı evimizdə olan kitablara diqqət yetirdim. Onların hazırlanması, sistemləşdirilməsi qaydalarını mənimsədim. Mükəmməl təsəvvür yarandıqdan sonra qəzet, jurnal, məcmuələrdəki yazılarını bir araya gətirdim. Düşünürdüm ki, bunların hamısını edib yekunlaşdırdıqdan sonra atama təqdim edərəm. Beləcə işlərimi yekunlaşdırdım. Atama təqdim etdim. Onun özündə də məqalələrinin və gördüyü işlərin müəyyən siyahısı vardı. Hər ikisini müqayisə etdik. Müəyyən yazılar kənarda qalmışdı və onları da əlavə edib sistemləşdirdik. Belə qərara gəldim ki, bunlar da tam deyil. Diqqətdən kənarda qalan, əlimizdə olmayan məqalələr də vardı. Çünki illərə diqqət yetirəndə bu aydınlıqla görünür. Qəbələdə işlədiyi vaxtlarda çap olunan məqalələri, universitetdə oxuduğu illərdəki yazıları, eləcə də Qazax rayon qəzetinin səhifələrindəki məqalələri yox dərəcəsində idi. Özü də bunları etiraf etdi və xeyli iş görülməli olduğunu söylədi. Bütün bunlara baxmayaraq, atamın toplaya bildiyim məqalələrini, işlərini sistemləşdirdim.

Son olaraq nəticəni atama söylədim. Buraya redaktoru olduğu kitabları, rəy verdiyi proqram, dərslik və dərs vəsaitlərini, monoqrafiyaları da əlavə etdik. Opponenti olduğu dissertasiyaları, elmi rəhbəri olduğu magistr dissertasiyalarını da ayrıca başlıq altında verdik.

Altmış illik ömürdə 25 kitab yazmaq, 7 toplu, 8proqram, 509 məqalə müəllifi olmaq böyük zəhmətin və vurğunluğun ifadəsidir. Burada bir insan ömrünün anları, dəqiqələri, günləri, illəri özünün ifadəsini tapır. Vətən, yurd, torpaq, insan sevgisi və onun sonsuzluğu görünür.

Toplayıb bir araya gətirdiyim məqalələrin siyahısı isə məndə ziyalı ömrü, altmış yaşa gəliş haqqında dolğun təsəvvür yaradır. Bunlar həm də bizim üçün örnək olacaq yolu aydınlaşdırır.

*Nurlana ALLAHMANLI,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Kredo.- 2021.- 16 iyun.- S.4.